Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Qarabağ ermənilərinə inteqrasiya imkanı - Azərbaycan tolerantlığının yeni təzahürü...

**Əvvəllər Ermənistan rəsmiləri müxtəlif ölkələrin və beynəlxalq qurumların iştirakı ilə aparılan danışıqlarda daim Qarabağda yaşayan ermənilərə hansısa "status" verilməsi şərtini irəli sürürdülər. Bu, bir növ ölünün dirildilməsi cəhdlərinə bənzəyirdi.**

Azərbaycan qətiyyətlə əsaslandırırdı ki, Qarabağda yaşayan ermənilərə hansısa bir statusun verilməsindən, ümumiyyətlə, söhbət gedə bilməz. Azərbaycanın Konstitusiya ilə müəyyən olunmuş unitar dövlət quruluşu var və bunun azsaylı etnik topluma görə dəyişdirilməsi mümkünsüzdür. Qarabağda yaşayan ermənilərlə də Azərbaycan vətəndaşları kimi davranılacaq.

Qarabağ ermənilərinin hüquqlarından danışmalarına heç bir lüzum yoxdur. Respublikamız dünyaya tolerantlıq, multikulturalizm nümunəsi göstərir. Ölkəmizdə milli-dini ayrı-seçkilik yoxdur. Burada ayrı-ayrı xalqların nümayəndələri yaşayırlar və bütün hüquqlardan istifadə edirlər. Azərbaycan Qarabağda erməni əhalisinin yaşamasında da hər hansı bir problem görmür. Qarabağda yaşayan ermənilərlə də Azərbaycan vətəndaşları kimi davranılacaq.

Prezident bu mövzuda aşağıdakı fikirləri bildirib:

"Qarabağda yaşayan ermənilər, - mən bunu dünən Ağdamda demişəm, - bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən Ermənistanla. Bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Hər halda, əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır".

**Qarabağda yaşayan erməni əhalisindən Azərbaycanın müvafiq qurumlarına müraciətlər daxil olub**

Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, hazırda yaranan şərait və bütün şərtlər Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya dövrünün gəlib çatdığını diqtə edir: "20 minədək erməni əhalisinin böyük əksəriyyətinin buna hazır olduğu barədə siqnallar da gəlməkdədir. Onlar başa düşürlər ki, "Dağlıq Qarabağ"ın heç üfüqdə də görünməyən müstəqilliyi siyasi oyunbazlıqdan başqa bir şey deyil. Otuz illik işğal sadə insanların həyatına hansısa bir üstünlüklər gətirməyib, əksinə insanların həyatı ağırlaşıb, onlar daim təzyiq və təhdid altında yaşayıblar. Cinayətkar, separatçı rejimdə təmsil olunanlar isə varlanıblar, özlərinə sərvət toplayıblar. Ermənistandan, digər ölkələrdən və xaricdəki lobbi təşkilatlarından gələn yardımlar, qrantlar məhz onlar tərəfindən mənimsənilir. Belə fikirlər, korrupsiya faktları vaxtaşırı Xankəndində keçirilən mitinqlərdə də səsləndirilir. İnsanlar separatçı rejimin fəaliyyətindən narazılıqlarının pik həddə çatdığını bildirirlər. Postmüharibə dövründə Qarabağda yaşayan erməni əhalisindən Azərbaycanın müvafiq qurumlarına müraciətlər daxil olub. Həmin müraciətlərdə erməni əhalisinin təmsilçiləri Azərbaycan vətəndaşlığını qəbul etməyə hazır olduqlarını bildirirlər".



**Hərbi-siyasi qalibiyyətlə multikulturalizm siyasətinin vahid şəkildə təqdimi bu baxımdan olduqca əhəmiyyətlidir**

Partiya sədri hesab edir ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi Azərbaycan ərazilərində Ermənistana məxsus hərbi birləşmələrin də fəaliyyətinə son qoymaq zamanı yetişib: " Bəhs olunan silahlı birləşmələrin Azərbaycan ərazilərindən çıxardılması ilə bağlı müddəa üçtərəfli Bəyanatda öz əksini tapıb. Ancaq öhdəliklərinə əməl etməyən məğlub Ermənistan ona məxsus hərbi birləşmələri ərazilərimizdən bütünlüklə çıxartmağa tələsmir. Düzdür, artan beynəlxalq qınaqdan çəkinən bu ölkə bəhs olunan ərazilərdəki silahlı birləşmələrin kontingentini müəyyən qədər azaldıb. Ancaq Azərbaycanın tələbi odur ki, qanunsuz silahlı dəstələr ərazilərimizdən tam şəkildə çıxarılsın. Ermənistan bunu öz xoşu ilə etməlidir, əks halda Azərbaycanın digər vasitələrə əl atmaqdan başqa yolu qalmayacaq. Qarabağdakı erməni əhalinin Azərbaycana inteqrasiyasına mane olan başlıca amillərdən biri də məhz budur".

**Azərbaycan dünya üçün sülhü təbliğ edən bir platforma, strategiya, model yaradıb**

Vətən müharibəsində Zəfərimizin əldə olunmasında ölkəmizdəki tolerantlığın, multikultural dəyərlərin, xüsusilə milli və dini həmrəyliyin xüsusi rolu olub. Hazırda qarşımızda duran başlıca vəzifə bu dəyərlərimizi, milli sərvətimizi qorumaq, möhkəmləndirmək, gücləndirmək və yeni nəslə ötürməkdir. Dünyada gedən proseslər və mənəvi böhranın getdikcə dərinləşməsi onu göstərir ki, Azərbaycan dünya üçün sülhü təbliğ edən bir platforma, strategiya, model yaradıb. Bunun yaranmasında ölkəmizdə mövcud olan bütün dini konfessiyalar, icmalar xüsusi fəallıq göstərib, xüsusi rol oynayıblar.

Azərbaycanın 44 gündə qazandığı qələbə, bunun ardınca post-konflikt dövründə əldə etdiyi siyasi uğurlar multikulturalizm aspektindən də mühümdür. Ptezident İlham Əliyevin strateji siyasi qərarları nəticəsində Azərbaycan multikulturalizm mərkəzlərindən biri olduğunu getdikcə daha artıq sübuta yetirməkdədir. Hərbi-siyasi qalibiyyətlə multikulturalizm siyasətinin vahid şəkildə təqdimi bu baxımdan olduqca əhəmiyyətlidir. Bağlanası sülh sazişi həm də Azərbaycanın multikultural normativ ədalət anlayışına necə sadiq olduğunu bütün dünyaya bir daha göstərəcək. Barışıqdan sonra Azərbaycanda yaşayan digər etnik və dini qruplar kimi erməni etnosu da bərabərhüquqlu multikultural vətəndaşlıq statusuna malik olacaq.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**